Layihə



# 2006 - 2016 - cı illər üçün Mədəniyyət sahəsində DÖVLƏT İNKİŞAF KONSEPSİYASI

## Giriş

Azərbaycan Respublikasının mədəniyyət siyasəti öz müstəqilliyinə son dövrlərdə yenidən qovuşmuş gənc bir dövlətin ümumi siyasətinin tərkib hissəsidir. Dövlət quruculuğu, iqtisadiyyat və sosial sahələrdə köklü dəyişikliklərə səbəb olan siyasi rejimin transformasiyası mədəni proseslərin məzmununa və dinamikasına bilavasitə təsir göstərmişdir.

Azərbaycanın müstəqilliyi bərpa edildikdən sonra respublika ilk illər çoxsaylı daxili və xarici problemlərlə üzləşmiş və mürəkkəb dövlət quruculuğu dövründən keçməli olmuşdur. Xalqın tələbi ilə ölkə rəhbərliyinə Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin qayıdışından sonra ölkədə daxili siyasi sabitlik bərpa edilmiş və onun gələcək inkişafının strategiyası və əsas istiqamətləri müəyyənləşdirilmişdir. Həmin andan etibarən Azərbaycanın dövlət həyatının bütün sahələri, o cümlədən mədəniyyət sahəsi üzrə dövlət siyasətinin müəyyən olunması və inkişaf etdirilməsi tarixində yeni mərhələ başlanmışdır.

Bu müdrik siyasətin məntiqi davamı kimi hazırda Azərbaycan Respublikasının Prezidenti cənab Ilham Əliyevin müvafiq fərmanları və göstərişləri ilə mədəniyyət sistemində çalışan işçilərin sosial müdafiəsinin gücləndirilməsi istiqamətində çox mühüm tədbirlər həyata keçirilir. Azərbaycanda son zamanlar müşahidə olunan sosial-iqtisadi uğurlar, respublikamızın beynəlxalq aləmdə daima artan nüfuzu, dövlət mədəniyyət siyasətinin inkişafı və Azərbaycan Respublikasının Konstitusiyasında, o cümlədən ölkə vətəndaşlarının mədəniyyət hüququ ilə bağlı 40-cı maddəsində nəzərdə tutulan hüquq və vəzifələrin həyata keçirilməsi üçün yeni əlverişli imkanlar yaradır: "Hər kəsin mədəni həyatda iştirak etmək, mədəniyyət təsisatlarından və mədəni sərvətlərdən istifadə etmək hüququ vardır. Hər kəs tarixi, mədəni və mənəvi irsə hörmətlə yanaşmalı, ona qayğı göstərməli, tarix və mədəniyyət abidələrini qorumalıdır". Azərbaycan Respublikasının 6 fevral 1998-ci il tarixdə qüvvəyə minən "Mədəniyyət haqqında Qanunu"nda mədəniyyət sahəsində dövlət siyasətinin əsas prinsipləri kimi sosial və maddi vəziyyətindən, milli, irqi, dini və cinsi mənsubiyyətindən asılı olmayaraq hər kəsin mədəniyyət sərvətlərinin yaradılmasında, istifadəsində və yayılmasında hüquq bərabərliyi; hər kəsin istedadının, əqli imkanlarının üzə çıxarılmasının və yaradıcılıq azadlığının təmin edilməsi; milli mədəniyyətin bəşər mədəniyyətinin tərkib hissəsi kimi inkişaf etdirilməsi müəyyən edilmişdir.

Eyni zamanda Ermənistanın Azərbaycana təcavüzü nəticəsində yaranmış Dağlıq Qarabağ münaqişəsinin hələ də öz həllini tapa bilməməsi Azərbaycan mədəniyyətinin inkişafına əngəl törədən ən böyük problem olaraq qalmaqdadır. 1988-ci ildən başlayaraq Ermənistanın işğalçılıq siyasəti nəticəsində Dağlıq Qarabağ və ona bitişik olan Kəlbəcər, Ağdam, Laçın, Cəbrayıl, Qubadlı, Zəngilan və Füzuli rayonları - Azərbaycan torpaqlarının 20 faizi işğal edilmişdir. Işğal olunmuş ərazilərdən qovulan qaçqınların və məcburi köçkünlərin sayı bir milyon nəfərdən çox olmuşdur. Işğal olunmuş ərazilərdə yaşayış evləri, sənaye və kənd təsərrüfatı obyektləri ilə yanaşı çoxlu sayda mədəniyyət müəssisələri qalmışdır: 927 kitabxana, 808 mədəniyyət sarayı, klub və mədəniyyət evi, 85 musiqi və rəssamlıq məktəbi, 22 muzey və onların filialları, 4 rəsm qalereyası, dünya əhəmiyyətli 13, ölkə əhəmiyyətli 242 və yerli

əhəmiyyətli 434 tarix və mədəniyyət abidələri. Onların arasında 11 və 15 aşırımlı Xudafərin körpüləri (VII-XII əsrlər), Kəlbəcər rayonundakı Gəncəsər və Xudavənd məbədləri (hər ikisi XIII əsr), Ağdam rayonunun Xaçın Türbətli kəndindəki məqbərə (XIV əsr) kimi ümumdünya əhəmiyyətli 6 memarlıq və 7 arxeologiya abidəsi, habelə Azərbaycanın musiqi beşiyi olan qədim Şuşa şəhər qoruğu vardır. Dövlət mədəniyyət siyasətinin ümdə vəzifəsi Azərbaycanın haqq səsini dünya ictimaiyyətinə çatdırmaq, mədəni-informasiya müharibəsində ədalətin zəfər çalmasına nail olmaqdan ibarətdir.

"2006-2016-cı illər üçün mədəniyyət sahəsində dövlət inkişaf konsepsiyası"nın əsas qayəsi daxili və xarici dövlət mədəniyyət siyasətinin təminatı mexanizmlərini dünya standartları səviyyəsinə çatdırmaq yolunda mədəni irsin qorunması, yaradıcılığın dəstəklənməsi və mədəni sənayelərin dirçəldilməsi kimi prioritet istiqamətləri müasir dövrün tələblərinə uyğun şəkildə inkişaf etdirməklə qədim və möhtəşəm Azərbaycan mədəniyyətinin və incəsənətinin qorunub saxlanılmasına, gələcək inkişafına və dünya mədəniyyətinə uğurlu inteqrasiyasına nail olmaqdır. Mədəniyyət və incəsənətin bütün sahələrində müasir informasiya-kommunikasiya texnologiyalarının tətbiqi həyata keçiriləcək islahatların əsas məğzi kimi nəzərdə tutulmuşdur.

## 1. Ümumi məqsəd və vəzifələr

"2006-2016-cı illər üçün mədəniyyət sahəsində dövlət inkişaf konsepsiyası"nın ümumi məqsəd və vəzifələri mədəniyyət siyasətinin təminat mexanizmləri kimi çıxış edən və mədəniyyətin bütün sahələrini əhatə edən mədəniyyətin idarəolunma, hüquqi, maliyyə, elmi-informasiya təminatı, insan resurslarının inkişafı, maddi-texniki infrastrukturun müasirləşdirilməsi və beynəlxalq əməkdaşlığın möhkəmləndirilməsi kimi ümumi məsələlərin inkişaf etdirilməsindən, o cümlədən daxili və xarici dövlət mədəniyyət siyasətinin göstərilən sahələrinin dünya standartları səviyyəsinə çatdırılması üçün tələb olunan islahatların həyata keçirilməsinin təmin edilməsindən ibarətdir.

## 1.1. Mədəniyyətin idarəolunmasında desentralizasiya, demonopolizasiya və demokratikləşmə istiqamətində aparılan islahatların sürətləndirilməsi

Azərbaycan Respublikası fəal əməkdaşlıq etdiyi dünya və xüsusilə də Avropa dövlətlərinin mütərəqqi təcrübəsinin göstərdiyi kimi mədəniyyətin idarə olunmasında ən müvəffəqiyyətli üsul bu işə dövlət orqanları ilə yanaşı vətəndaş cəmiyyətinin cəlb olunması, mərkəzi və yerli idarəetmə orqanlarının qarşılıqlı əməkdaşlığı, mədəniyyət ocaqlarının istifadəsində inhisarın aradan qaldırılmasıdır. Mədəniyyətin idarəolunması sahəsində aparılacaq islahatların əsas məqsədləri kimi aşağıdakılar müəyyən edilir:

- mədəniyyət və incəsənət sahələrinin idarə olunmasında mərkəzi və yerli icra hakimiyyəti orqanları arasında mütənasibliyin inkişafı vasitəsilə ***desentralizasiya*** proseslərinin davam etdirilməsi;
- art-menecment və prodüserlik institutunun formalaşdırılması vasitəsilə mədəniyyət obyetlərinin istifadəsində və müvafiq tədbirlərin keçirilməsində ***demonopolizasiya***nın inkişaf etdirilməsi;
- ölkədə vətəndaş cəmiyyətinin formalaşdırılması, titul millətin və milli azlıqların mədəni özünəməxsusluğunun qorunub saxlanılması, özəl təşəbbüslərin üzə çıxarılması və fərdi layihələrin həyata keçirilməsi məqsədilə mədəniyyət sahəsində davamlı ***demokratikləşmə***nin inkişaf etdirilməsi.

## 1.2. Hüquqi təminatın inkişaf etdirilməsi

Ümumbəşəri dəyərləri prioritet qəbul edərək, müstəqil Azərbaycan Respublikasının seçdiyi demokratik, dünyəvi və hüquqi dövlət qurmaq yolu ölkənin dünya birliyinə sivil inteqrasiyasının, həm də həyat fəaliyyətinin bütün sahələrinin normal işləməsinin başlıca şərti olan qanunun aliliyinin təsdiqi və ona riayət olunması prinsipini nəzərdə tutur. Bu səbəbdən, mədəniyyət siyasətinin həyata keçirilməsinin ən əsas vasitələrindən biri mədəni həyatın və ayrı-ayrılıqda onun hər bir mərhələsinin - mədəni dəyərlərin yaradılması, qorunub saxlanması, yayılması və mənimsənilməsi proseslərinin tənzimlənməsində hüquqi cəhətdən mükəmməl qanunların hazırlanması, qəbul edilməsi və tətbiq



olunması müstəsna əhəmiyyət kəsb edir. Bu istiqamətdə aparılan müsbət fəaliyyətin davam etdirilməsinin zəruriliyi nəzərə alınaraq aşağıdakı məqsədlər irəli sürülür:

- Azərbaycan mədəniyyət siyasətinin ***qanunvericilik bazası***nın kompleks şəkildə təkmilləşdirilməsi, mədəniyyət sahəsində güzəştli vergi sisteminin tətbiqi;
- mədəniyyət sahəsində ***beynəlxalq normativ fəaliyyət***in inkişaf etdirilməsi, beynəlxalq konvensiyalar və ikitərəfli müqavilələr çərçivəsində əməkdaşlığın genişləndirilməsi;
- ***mədəni hüquqlar***ın müdafiəsi təcrübəsinin təkmilləşdirilməsi və mədəniyyət sahəsində çalışanların hüquqi biliklərinin artırılması; müəllif hüquqlarının bərpasında hüququn tətbiqi praktikasının təkmilləşdirilməsi.

## 1.3. Maliyyələşdirmə mənbələrinin diversifikasiyası

Azərbaycan Respublikasında mədəniyyətin maliyyələşməsi keçid iqtisadiyyatı dövrünü yaşayan bütün ölkələrdə mövcud olan eyni tendensiyalara malikdir. Büdcə maliyyələşməsi ölkədə mədəniyyətin başlıca maliyyələşmə mənbəyidir. Bu vəziyyət respublikada mədəni irsi qoruyub saxlamağa, bazar iqtisadiyyatına keçid kimi çətin bir dövrdə mədəniyyət işçilərini sosial cəhətdən mümkün qədər qorumağa imkan verir. Eyni zamanda qeyd olunmalıdır ki, dünyanın aparıcı ölkələrində bu maliyyələşmənin bir çox başqa, alternativ mənbələri də mövcuddur. Bütün bunlar nəzərə alınaraq, mədəniyyətin maliyyə təminatı mənbələrinin diversifikasiyası üçün aşağıdakı əsas məqsədlər irəli sürülür:

- ***dövlət büdcəsi***ndə mədəniyyətə ayrılan vəsaitin həcminin (xüsusi faiz çəkisinin azaldılmaması şərtilə) mütəmadi olaraq artırılması, habelə xərclərin daha ünvanlı istifadə edilməsi məqsədilə dövlət sifarişlərinin daha geniş tətbiq olunması və dövlət qrantları sisteminin yaradılması və ayrılan büdcə vəsaitinin xərclənməsinə nəzarətin gücləndirilməsi;
- imkanlı hüquqi və fiziki şəxslərin (mesenat, sponsor, investorlar və s.) mədəniyyətin inkişafında daha dolğun iştirakının təmin edilməsi və ***alternativ maliyyə vəsaitləri***nin (kredt, qrant və s.) cəlb edilməsi və bu məqsədə çatmaq üçün müvafiq vergi güzəştlərinin tətbiq edilməsi;
- fandrayzinq və marketinqin inkişaf etdirilməsi vasitəsilə mədəniyyət müəssisələrində göstərilən ***pullu mədəni xidmətlər***in təkmilləşdirilməsi və genişləndirilməsi.

## 1.4. Konseptual-məlumat təminatının yenidən təşkil olunması

Dövlət quruculuğunun digər sahələrində olduğu kimi, ölkədə aparılan daxili və xarici mədəniyyət siyasətinin proqramlaşdırılması, hərtərəfli tədqiq edilən mədəniyyət siyasəti elminə və əlaqəli innovasiyalara əsaslanmalıdır. Eyni zamanda təşəkkül tapmaqda olan qlobal informasiya cəmiyyətində elmi əsaslandırılmış informasiyanın artan rolu da danılmamalıdır. Bu məqsədlə mədəniyyətin elmi-informasiya təminatının dərinləşdirilməsi üçün aşağıdakı əsas yollar müəyyən edilir:

- ***elmi-metodiki tədqiqatlar***ın aparılması, statistik məlumatların toplanması, ictimai rəyin öyrənilməsi məqsədilə sosioloji sorğuların keçirilməsi, müasir sənədləşmənin tətbiq edilməsi, məlumat bazalarının yaradılması, milli və beynəlxalq konfrans, seminar və s. keçirilməsi;
- daxili və xarici mədəniyyət siyasəti, mədəniyyət və incəsənətin müxtəlif sahələri, həmçinin ayrı-ayrı regionlar üzrə ***inkişaf konsepsiyaları***nın, strateji dövlət proqramlarının və layihələrinin işlənib hazırlanması;
- ***informasiya və reklam*** işinin əsaslı şəkildə təşkili, milli və beynəlxalq kütləvi informasiya vasitələrində və qlobal internet şəbəkəsində Azərbaycan mədəniyyətinin və incəsənətinin layiqli təmsil etdirilməsi. Mədəniyyət sahəsində informasiya bazasının yaradılması, mədəniyyət-informasiya-tanıtma, reklam və yayınlar proqramının hazırlanıb bazara keçirilməsi, mədəniyyət informasiya məkanının formalaşdırılması.

## 1.5. Təhsil və insan resurslarının inkişaf etdirilməsi

Mədəniyyət və Turizm Nazirliyi sistemində 1 ali məktəb, 1 kollec, 184 uşaq musiqi, 48 incəsənət, 2 rəssamlıq, 1 bədii sənətkarlıq və incəsənət məktəbi, cəmi 235 məktəb fəaliyyət göstərir. Onlardan 39 məktəb Bakı şəhərində, 170 məktəb respublikanın şəhər, rayon və kəndlərində, 26 məktəb Naxçıvan Muxtar

Respublikasında yerləşir. Məktəblərdə 70.000-dən çox şagird təhsil alır. Qaçqın və məcburi köçkün rayonların 50 məktəbi öz fəaliyyətlərini müxtəlif şəhər və rayonlarda davam etdirirlər. Mədəniyyət sahəsinin ardıcıl inkişafının təmin olunmasında yaşlı nəsillərin əldə etdiyi təcrübənin layiqincə dəyərləndirilməsi və gənc nəslə ötürülməsinin təmin edilməsi, respublikada mövcud olan üçpilləli (ibtidai, orta peşə və ali peşə) mədəniyyət və incəsənət təhsili sisteminin və şəbəkəsinin kompleks şəkildə müasirləşdirilməsi labüddür. Bütün bunlar nəzərə alınaraq, təhsil və insan resurslarının inkişafını təmin etmək məqsədilə aşağıdakı əsas məqsədlər müəyyən edilir:

- Azərbaycan *mədəniyyət xadimlərinin* və *incəsənət ustalarının* maddi və mənəvi tələbatlarının ödənilməsi, onların fəal yaradıcılıqları üçün şəraitlərin yaradılması;
- *təhsil və ixtisasartırma sisteminin* təkmilləşdirilməsi, xarici ölkələrdə təcrübəkeçmə səfərlərinin keçirilməsi və tanınmış əcnəbi mütəxəssislərin dəvət edilməsinin təşkili;
- uşaqlar və yeniyetmələr üçün müxtəlif növ ixtisaslaşdırılmış müsabiqələrin, festivalların və s. təşkili yolu ilə *gənc istedadların* üzə çıxarılması.

## 1.6. Maddi-texniki infrastrukturun müasirləşdirilməsi

Mədəni dəyərlərin ümumilikdə ideal və mənəvi səciyyəli olmasına baxmayaraq onların dolğun yaradılması, mühafizəsi və ictimai istifadəsi maddi-texniki və infrastruktur texnoloji şəraitdə baş verir. İnformasiya-kommunikasiya texnologiyalarının sürətli inkişafını təmin etdirmədən qloballaşan dünyada cəmiyyətin və mədəniyyətin tərəqqisi qeyri-mümkündür. Bu baxımdan mədəniyyətin maddi-texniki infrastrukturun müasirləşdirilməsi üçün aşağıdakı əsas məqsədlər müəyyən edilir:

- mədəniyyət müəssisələri üçün dövlət sifarişi əsasında hazırlanmış orijinal layihələr üzrə *xüsusi nümunəvi binaların tikilməsi*;
- əsaslı və cari təmirə ehtiyacı olan mədəniyyət obyektlərinin müvafiq növbə siyahısı üzrə *təmir* edilməsi;
- mədəniyyət obyektlərinin yeni tipli mühəndis avadanlıqlar və texnoloji sistemlərlə təchizatı, müasir *informasiya-kommunikasiya texnologiyalarının* tətbiqi üçün şəbəkə layihələrinin həyata keçirilməsi.

## 1.7. Beynəlxalq münasibətlərdən beynəlxalq əməkdaşlığa doğru

Beynəlxalq əməkdaşlıq prinsipini, bütün dövlətlərlə mehriban qonşuluq əlaqələrinin yaradılması və saxlanılması zərurətini, həmçinin mədəniyyətin beynəlxalq həyatda başlıca rol oynadığını və beynəlxalq mədəni əlaqələrin əsas xarici siyasət vasitələrindən biri olduğunu, Azərbaycanın mədəni sərvətlərinin təbliğində və mədəniyyətlərarası dialoqun həyata keçirilməsində turizmin də başlıca vasitələrdən biri olduğunu nəzərə alaraq; ümumdünya irsinin ayrılmaz hissəsi olan Azərbaycanın mədəni irsinin qorunmasını, qloballaşma şəraitində mədəni çeşidliliyin inkişaf etdirilməsini vacib hesab edərək; xüsusilə postsovet məkanında münaqişələrin qarşısının alınması vasitəsi kimi mədəniyyətlərarası dialoqun yaradılması, xaricdə yaşayan azərbaycanlıların mədəniyyətinin özünəməxsusluğunun dəstəklənməsi, Azərbaycan mədəniyyətinin xaricdə təqdim və təbliğ edilməsi, həmçinin xarici mədəniyyətlərin ən parlaq nümunələrinin Azərbaycanda yayılmasına yardım göstərilməsi üçün aşağıdakı məqsədlər irəli sürülür:

- Avropa, Asiya, Amerika, Afrika dövlətləri, qonşu və türkdilli və digər ölkələrin xalqları ilə mədəniyyət və turizm sahəsində *ikitərəfli beynəlxalq əlaqələrinin* möhkəmləndirilməsi və genişləndirilməsi;
- BMT, Islam Konfransı Təşkilatı, YUNESKO, Dünya Turizm Təşkilatı, Avropa Şurası, Avropa Ittifaqı, TÜRKSOY, İSESKO, MDB-nin Mədəni Əməkdaşlıq üzrə Şurası, Demokratiya və iqtisadi inkişaf naminə - GUAM, İKKROM, İRCİCO və s. beynəlxalq təşkilatlar çərçivəsində *çoxtərəfli əməkdaşlığın* inkişaf etdirilməsi;
- *xaricdə yaşayan azərbaycanlılara* texniki-təşkilati və məşvərət dəstəyinin göstərilməsi vasitəsilə dünyada Azərbaycan mədəniyyəti və turizm mərkəzləri şəbəkəsinin genişləndirilməsi.

## 2. Mədəni irsin mühafizəsi

Hər bir xalqın mədəni irsi onu dünya miqyasında tanıdan və özündə milli-mənəvi kodlaşmanı əks etdirən tərcümeyi-halı, bir növ vizit



vərəqəsidir. Konkret zaman və məkan kontinuumu ilə çərçivələnən və bilavasitə ayrı-ayrı millətlərə mənsub olan maddi və qeyri-maddi mədəni irsin inciləri eyni zamanda bütün bəşəriyyətin mədəni xəzinəsinə daxildir. Bu səbəbdən daşınmaz tarix və mədəniyyət abidələri, muzey və kitabxana sistemləri, qeyri-maddi irs və xalq yaradıcılığı, klub və park şəbəkələri mədəni irsin mühafizəsi işinin prioritet istiqamətləri hesab edilir.

## 2.1. Daşınmaz tarix və mədəniyyət abidələrinin qorunması, bərpası və istifadəsi

Tarixi Azərbaycan ərazisi maddi və mənəvi mədəniyyət abidələri ilə zəngindir. Yuxarı paleolit dövründən başlayaraq bu zona insan tərəfindən intensiv şəkildə mənimsənilmişdir. Bütün dünyada məşhur olan Azıx mağarası, Tağlar və Qazaxdakı mağara düşərgələri, 10 mindən çox müxtəlif qayaüstü rəsmlərin qeydə alındığı unikal Qobustan abidəsi, habelə Abşeronda, Kəlbəcərdə və Naxçıvanın Ordubad rayonunda Gəmiqaya adlanan yerdə üzə çıxarılan qayaüstü rəsmlər bu qəbildəndir. Dövlət mühafizəsinə götürülən tarix və mədəniyyət abidələrinin son dəfə təsdiq edilmiş siyahısına Azərbaycanda 6308 tarix və mədəniyyət abidəsi (bunlardan 21-i dünya əhəmiyyətli memarlıq, 44-ü dünya əhəmiyyətli arxeologiya abidələridir), o cümlədən bağ-park, monumental və xatirə abidəsi, dekorativ-tətbiqi sənət abidələri (xalq daş-heykəltəraşlıq abidələri) mövcuddur. Daşınmaz tarix və mədəniyyət abidələrinin qorunması, bərpası və istifadəsi sahəsində aşağıdakı əsas məqsədlər müəyyən edilir:

- *abidələrin qorunması* və gələcək nəsillərə çatdırılması məqsədi ilə bu sahədə mövcud idarəetmə sisteminin təkmilləşdirilməsi;
- abidələrin qorunması məqsədilə onların inventarlaşdırılması, elektron informasiya qovşaqlarında məlumat bazasının yaradılması, normativ sənədlərin hazırlanması, mühafizə zonalarının yaradılması, mədəniyyət qoruqlarının sərhədlərinin təsdiqi və dövlət torpaq aktının verilməsi, inkişaf və idarəolunma planlarının hazırlanması;
- *abidələrin bərpası* məqsədilə layihələrin hazırlanmasında və abidələrdə aparılacaq işlərdə müasir texnologiyaların tətbiq edilməsi;
- *abidələrin istifadəsi* və təbliği vasitəsilə mədəni turizm infrastrukturunun inkişaf etdirilməsi və marşrutların işlənilməsi, xəritələrin hazırlanması;
- *tarix və mədəniyyət qoruqlarının* fəaliyyətlərinin təkmilləşdirilməsi, onların idarəetmə və inkişaf planlarının hazırlanması.

## 2.2. Muzey işinin müasirləşdirilməsi

Hazırda Mədəniyyət və Turizm Nazirliyi sistemində 160 muzey fəaliyyət göstərir. Fəaliyyət profili üzrə onlardan 74-ü tarix və tarix-diyarşünaslıq muzeyi, 57-si elm, siyasət, mədəniyyət və incəsənət xadimlərinin ev-muzeyi, 20-si incəsənət və ədəbiyyat muzeyi, 5-i hərbi-vətənpərvərlik və döyüş şöhrəti muzeyidir. Ən iri muzeylər sırasına Azərbaycan Dövlət Incəsənət Muzeyi, Azərbaycan Xalçası və Xalq Tətbiqi Sənəti Dövlət Muzeyi, C.Cabbarlı adına Azərbaycan Dövlət Teatr Muzeyi, Azərbaycan Musiqi Mədəniyyəti Dövlət Muzeyi, Azərbaycan Istiqlal Muzeyi daxildir. Muzey işinin müasirləşdirilməsi üçün aşağıdakılar əsas məqsədlər kimi müəyyən edilir:

- *muzey fondlarının*, qiymətli incəsənət əsərləri və muzey əşyalarının mühafizəsi, pasportlaşdırılması, bərpa edilməsi, konservasiyası və muzey kolleksiyalarının komplektləşdirilməsi işinin təkmilləşdirilməsi; muzey fondlarının məlumatlarının rəqəmli daşıyıcılara köçürülməsi və elektron kataloqlaşdırılması vasitəsilə milli inteqral muzey informasiya sisteminin təşkil edilməsi;
- *muzeylərin ekspozisiyalarının bədii-tərtibatlarının* keyfiyyətinin yüksəldilməsi, beynəlxalq standartlara çatdırılması, konseptual ekspozisiyaların, müxtəlif səpkili sərgilərin təşkili;
- Azərbaycanda turizmin inkişafı üçün muzeylərin turist marşrutlarına salınması və *geniş tamaşaçı kütləsi ilə iş*lərin təkmilləşdirilməsi çərçivəsində fərdi ekskursiyaların, ailəvi proqramların, uşaq tədris proqramlarının, tələbələr və gənclər üçün tədris proqramlarının, interaktiv proqramların hazırlanması;
- *muzey marketinqinin inkişaf etdirilməsi*, xarici və daxili investisiyaların cəlb edilməsi məqsədilə xüsusi kataloq, əlfəcin, təqvim, broşur, suvenir və s. hazırlanması, respublikada

təşkil edilən sərgilər barədə sorğu-məlumat kitabçasının mütəmadi buraxılışı.

## 2.3. Kitabxana-informasiya şəbəkəsinin modernləşdirilməsi

Azərbaycan Respublikasının ərazisində müxtəlif nazirlik və idarələrin tabeliyində olan təxminən 10 minə yaxın kitabxana fəaliyyət göstərir. Mədəniyyət və Turizm Nazirliyinin kütləvi kitabxanalar şəbəkəsi ən geniş şəbəkədir. Mədəniyyət və Turizm Nazirliyi sisteminə 4500 minə yaxın kitabxana və kitabxana filialı daxildir. Buraya kütləvi və uşaq kitabxanaları, musiqi məktəblərinin, muzey və digər mədəniyyət və tədris müəssisələrinin kitabxanaları daxildir. Hazırda bu şəbəkədə 4 Respublika kitabxanası, Bakı şəhərində 57 kütləvi, 17 uşaq və 2 Mərkəzləşdirilmiş Kitabxana Sistemi, regionlarda (şəhər və rayonlarda, Naxçıvan MR-da) isə 74 Mərkəzləşdirilmiş Kitabxana Sistemi fəaliyyət göstərir. Onlardan 10 Mərkəzləşdirilmiş Kitabxana Sistemi erməni təcavüzkarları tərəfindən işğal olunmuş ərazilərdə yerləşirdi. Bu sistemə daxil olan kitabxanaların fondlarında 40 milyona yaxın kitab, jurnal, qəzet, not, buklet, CD, audiokasset və s. vardır. Ölkə kitabxanalarının modernləşdirilməsi üçün aşağıdakılar əsas məqsədlər müəyyən edilir:

- Azərbaycan Respublikasının Dövlət Kitabxana Fondunun kitabxanalar arasında əlaqələndirilməsi və sistemli formada ***komplektləşdirilmə***si, qarşılıqlı istifadəsi və mübadiləsi, kitabxanaların profillərinə uyğun olaraq fondlarının xarici ədəbiyyatla təmin olunmasının koordinasiya planının hazırlanması və Ümumrespublika xarici ədəbiyyat bankının, məqsədli elektron kolleksiyalarının yaradılması;

- kitabxana-biblioqrafiya proseslərinin ***avtomatlaşdırılma***sı, Elektron kataloq və Elektron kitabxanaların yaradılması məqsədilə AzLIBNET ümumrespublika Kitabxana-informasiya şəbəkəsi Proqramı, AzMARK Milli kommunikativ formatının hazırlanması, Milli toplu kataloqun yaradılması;

- cari ***milli biblioqrafiya***nın, milli çap məhsullarının, ədəbiyyat salnamələrinin nəşrinin bərpası və retrospektiv milli biblioqrafiyanın nəşr proqramının hazırlanması;

- ***kitab fondu*** incilərinin, nadir nüsxələrin mühafizəsi, bərpası, konservasiyası və rəqəmli daşıyıcılara köçürülməsi, kitabxana kataloqlarının retrokonversiyası, kitabxanalarda xidmət səviyyəsinin beynəlxalq standartlara çatdırılması;

- ölkənin yeni Kitabxana-informasiya şəbəkəsinin müasir texnoloji əsaslar üzərində qurulan infrastrukturunun - ***dislokasiya xəritəsi***nin işlənilməsi.

## 2.4. Qeyri-maddi irsin və xalq yaradıcılığının qorunması

Azərbaycanın ənənəvi musiqi mədəniyyəti janr və forma rəngarəngliyini canına hopduran çoxplanlı bir hadisədir. Azərbaycan xalq incəsənəti ta qədimdən iki əsas xətt üzrə: əmək, mərasim, məişət nəğmələri, kollektiv və solo rəqslər və xalq teatrı janrlarından ibarət olan folklor xətti və muğamları, xalq mahnılarını ifa edən aşıq və xanəndələrin yaşatdığı şifahi ənənəli peşəkar musiqi sənəti xətti ilə inkişaf etmişdir. Öz kökləri ilə tarixin ən dərin qatlarına gedib çıxan sənətkarlıq növlərinin xeyli hissəsi indiyə kimi öz mövcudluğunu davam etdirir. Xalçaçılıq, daş oymaçılığı, ipəkçilik, misgərlik, zərgərlik, şəbəkəçilik kimi ənənəvi sahələr sənət peşələrinin əsasını təşkil edir. Azərbaycançılıq, tolerantlıq, vətənpərvərlik və demokratik əsasların (o cümlədən, demokratik mədəniyyətin) yerlərdə təbliği işində mədəniyyət evlərinin və klub müəssisələrinin özünəməxsus imkanlara malik olduğu nəzərə alınaraq, qeyri-maddi irsin və xalq yaradıcılığının qorunması və dəstəklənməsi sahəsində aşağıdakı məqsədlər irəli sürülür:

- xalq yaradıcılığı üzrə elektron məlumat bazasının yaradılması, folklor musiqisi və etnoqrafik ***folklor nümunələri***nin toplanılması və rəqəmli daşıyıcılara köçürülməsi;

- klub və mədəniyyət evlərinin nəzdində ***folklor mərkəzləri***nin və dərnəklərin yaradılması, ustad dərslərin keçirilməsi;

- xalq sənətinə həsr edilmiş festivalların, sərgilərin, müsabiqələrin və s. keçirilməsi, mədəni park xidmətlərinin genişləndirilməsi və kütləvi ***milli mədəni tədbirlər***in təşkil olunması.

# 3. İncəsənətin dəstəklənməsi

Azərbaycan xalqının öz kökləri ilə ta qədim dövrlərə gedib çıxan incəsənət ənənələri neçə-neçə nəsillərin bədii təcrübəsinə arxalanmışdır. Azərbaycanda incəsənət cəmiyyətin, ölkənin özünəməxsusluğunun və onun gələcək inkişafının vacib hissəsi hesab edilir və burada o, əyləncə və bəzək vasitəsi və yaxud faydalı ritorika aləti kimi deyil, əksinə, xalqın ekzistensial problemlərini ifadə edən, milli-mənəvi vücudunu təsdiqləyən format kimi qəbul edilir. İncəsənətin dəstəklənməsi teatr, musiqi və təsviri sənət sahələrinin inkişafını nəzərdə tutur.

## 3.1. Teatr

Azərbaycanda teatr sənətinin qədim və zəngin tarixi vardır. İnsanların əmək fəaliyyəti ilə bağlı oyunlar və rəqslər, mövsüm bayramları, aşıq sənəti, dini ayinlərlə bağlı meydan mərasimləri, müxtəlif tamaşa növləri xalq teatrının əsasını müəyyən etmiş, milli teatrın gələcək inkişafı üçün möhkəm zəmin yaratmışdır. Hazırda Mədəniyyət və Turizm Nazirliyi sistemində 28 dövlət teatrı vardır: Dövlət Akademik Opera və Balet Teatrı, Musiqili Komediya Teatrı, Gənc Tamaşaçılar Teatrı, Poeziya Teatrı, 15 Dram teatrı, 3 Musiqili Dram Teatrı, 5 Kukla Teatrı, Pantomima Teatrı. Milli teatrlarla yanaşı ölkədə mədəni dözümlülük siyasətinə uyğun olaraq Azərbaycanda yaşayan azsaylı xalqların dillərində tamaşalar hazırlayan teatrlar da fəaliyyət göstərir. Məsələn: əsası hələ 1923-cü ildə qoyulmuş S.Vurğun adına Azərbaycan Dövlət Rus Dram Teatrı, Qusar Dövlət Ləzgi Dram Teatrı (1992), Qax rayonunun Əlibəyli kəndində fəaliyyət göstərən Dövlət Gürcü Teatrı (2005). Son illərdə bələdiyyə teatrları və özəl teatrlar, studiyalar, özəl antreprizlər fəaliyyət göstərməyə başlamışdır. Teatr sənəti istiqamətində aşağıdakı əsas məqsədlər müəyyən edilir:

- qədim xalq teatrı növlərinin dirçəlişi, nadir ***səhnə ocaqları***nın qorunması, uşaqlar və yeniyetmələr üçün teatr şəbəkəsinin genişləndirilməsi, məcburi köçkünlük şəraitində fəaliyyətini davam etdirən teatrlara məqsədli maddi və yaradıcılıq yardımının göstərilməsi;

- teatr sənətinin müxtəlif janrları üzrə yüksək bədii dəyərli ***yeni əsərlər***in yaradılması və onların səhnə təcəssümünü təmin etmək məqsədi ilə dövlət sifarişləri sistemindən daha geniş və səmərəli istifadə edilməsi, bununla bağlı xüsusi dövlət proqramlarının həyata keçirilməsi;

- respublikanın bütün teatrlarında ***tamaşalar***ın hazırlanmasının stimullaşdırılması, respublika və beynəlxalq səviyyəli teatr festivallarının, müsabiqələrinin və s. təşkil olunması.

## 3.2. Musiqi

Parlaq tarixi ənənələrə malik olan Azərbaycan folklor və klassik musiqisinin geniş konsert infrastrukturu mövcuddur, konsert həyatının aparılması üçün kifayət qədər konsert salonu fəaliyyət göstərir, onların arasında Azərbaycan Dövlət Filarmoniyası, Heydər Əliyev adına Saray, Kamera və Orqan Musiqisi Zalı, Bakı Musiqi Akademiyasının Zalı, Azərbaycan Dövlət Mahnı Teatrı kimi konsert salonları vardır. Azərbaycan musiqi sənətinin inkişafının dəstəklənməsi milli musiqi irsinin qorunması və təbliği, yaradıcılıq və ifaçılıq axtarışlarının müxtəlif formalarının inkişafı və dünyəvi mədəniyyət proseslərinə inteqrasiyası üçün çoxşaxəli və rəngarəng musiqi mühitinin yaradılması kimi istiqamətlərdə öz əksini tapır və aşağıdakı məqsədləri müəyyən edir:

- yüksək bədii keyfiyyətə malik ***yeni musiqi əsərləri***nin yaradılması məqsədilə bəstəkarların yaradıcılığının təşviq edilməsi, Azərbaycan klassik musiqi incilərinin rəqəmli daşıyıcılara köçürülməsi;

- musiqinin çeşidli janrları üzrə respublika festivallarının, müsabiqələrin və ***konsertlər***inin təşkili, habelə Azərbaycan bədii kollektivlərinin və solistlərinin beynəlxalq tədbirlərdə iştirakının təmin olunması;

- Azərbaycanın ***şifahi ənənəli musiqi irsi***nin - muğam və aşıq sənətinin bəşəriyyətin qeyri-maddi irsi statusunda qorunması, habelə bəstəkar yaradıcılığının təbliği ilə bağlı kompleks tədbirlərin davamlı olaraq həyata keçirilməsi;

- Azərbaycanın regionlarının yerli və beynəlxalq ***musiqi-mədəni layihələri***ndə geniş iştirakı üçün şərait yaradılması, azsaylı xalqların musiqi irsinin qorunması.

## 3.3. Təsviri sənət

Azərbaycan xalqının təsviri sənəti çox qədim tarixə malikdir. Azərbaycan qədim dövrlərdən bəri zəngin və özünəməxsus mədəniyyəti ilə məşhurdur. Bunun əyani sübutu ölkəmizin qədim mədəniyyət abidələri, orta əsr incəsənəti - gözəl miniatür məktəbi, yüksək səviyyəli dekorativ-tətbiqi sənətidir. Müasir təsviri və dekorativ sənət sahəsində inkişafın əsas istiqamətləri ölkənin

mədəni irsinin qorunması, ənənəvi bədii istiqamətlərin və sərbəst bədii yaradıcılıq axtarışlarının inkişafı, eləcə də dünya bədii proseslərinə inteqrasiyası və milli mədəniyyət nailiyyətlərinin təbliğatı ilə bağlıdır. Hazırda Mədəniyyət və Turizm Nazirliyinin sistemində 33 rəsm qalereyası və 1 sərgi salonu vardır. Azərbaycan təsviri sənətinin dəstəklənməsi üçün aşağıdakı məqsədlər müəyyən edilir:

- Qədim dövrdən bu günədək Azərbaycan ***təsviri və dekorativ sənəti tarixi***nə həsr olunmuş kitablar, filmlər, disklər, saytlar, bukletlər, kataloqlar seriyasının yaradılması;
- Təsviri və dekorativ sənətin müxtəlif növləri üzrə maraqlı və ***perspektivli layihələrə dəstək***; Azərbaycanda beynəlxalq simpoziumların, festivalların, müsabiqələrin keçirilməsi və eləcə də Azərbaycan rəssamlarının, sənətşünaslarının incəsənətin müxtəlif növləri üzrə beynəlxalq layihə və müsabiqələrdə fəal iştirakı; istedadlı gənclərin dəstəklənməsi və həvəsləndirilməsi;
- Rəsm qalereyalarının ***müasir incəsənət***in real mərkəzlərinə çevrilməsi üçün şəraitin yaradılması, müasir incəsənət kolleksiyasının formalaşdırılması, qalereyaların sərgi və maarifləndirici fəaliyyət proqramının hazırlanması, regional qalereyalarının kolleksiyalarının müasir incəsənətin yeni əsərləri ilə zənginləşdirilməsi, yeni informasiya texnologiyalarından istifadə edilməsi.

## 4. Mədəni sənayelərin dirçəldilməsi

Kütləvi şəkildə özəlləşdirilərkən ciddi böhrana məruz qalan mədəniyyət industriyaları - nəşriyyat, mətbuat, audio-video və fonoqram məhsullarının istehsalı öz iri potensialları və perspektivləri sayəsində özəl sektorla tərəfdaşlıq yaradılmasının ən cəlbedici nümunəsinə çevrilə bilər. Buraya xüsusi növ kimi mövcud olmayan maraqlı məzmun və yaradıcı ideyalar tələb edən yeni yüksək texnologiyaları da əlavə edə bilərik. İnkişafı dövlət tərəfindən qismən dəstəklənən kinematoqrafiya və nəşriyyat sahələri istisna edilməklə bütün digər sahələr müstəqildir və dövlət tərəfindən maliyyələşdirilmir.

## 4.1.Kinematoqrafiyanın dirçəldilməsi

Milli kinematoqrafiya tarixi XIX əsrdə başlayan çox az ölkələrdən biri də Azərbaycandır. Bu zəngin tarix bir neçə mərhələdən ibarətdir və hər bir mərhələ də məxsus olduğu dövrü əks etdirir, dünyada cərəyan edən kinematoqrafik proseslərin axarında qalmaqla yanaşı milli özünəməxsusluğu ilə seçilir. Hazırda Azərbaycanda kino istehsalının ən iri maliyyə mənbəyi dövlət büdcəsidir. Dövlət, nazirliyin strukturuna daxil olan studiyalara və eləcə də müstəqil prodüser mərkəzlərinə dövlət sifarişi verməklə həyata keçirir. Ayrılan məbləğ hesabına ildə 4-5 tammetrajlı bədii, 3-4 sənədli, 1 animasiya filmi, 2-3 qısametrajlı film-debüt çəkilir, həmçinin ölkənin kinosalnaməsinin çəkilişi həyata keçirilir. Müxtəlif illərdə Azərbaycanda istehsal edilmiş filmlər və onların müəyyən qisminin ilkin materialları Dövlət Film Fondunda saxlanılır. Burada həmçinin dünya kinosunu əhatə edən 2 mindən artıq adda filmdən ibarət kino toplusu vardır. Kino nümayişi müəssisələri şəbəkəsinə 50-80-ci illərdə layihə üzrə inşa edilmiş və yaxud uyğunlaşdırılmış binalarda yerləşən 100-ə qədər kinoteatr daxildir. Bakı, Gəncə və bir neçə rayon mərkəzi istisna edilməklə əksər yerlərdə kinoteatrlar fəaliyyət göstərmir. Müasir tələblərə cavab verən yeganə kinoteatr Bakıdakı "Azərbaycan" kinoteatrıdır. Azərbaycan Respublikası Prezidentinin 23 avqust 2006-cı il tarixli Sərəncamı ilə yüzə qədər qış və yay kino nümayişi obyekti özəlləşdirilməyə açılmışdır. Milli kinematoqrafiyanın dirçəldilməsi sahəsində aşağıdakı məqsədlər müəyyən edilir:

- milli ***kino istehsalı*** sənayesinin dirçəldilməsi və səmərəli işləməsi məqsədilə müasir istehsalat bazasının yaradılması, yaradıcılıq və kommersiya baxımından maraqlı kinolayihələrin dəstəklənməsi;
- ***kinoprokat*** sisteminin bərpası, keyfiyyətcə yeniləşmiş, müasir tələblərə cavab verən dövlət kinoteatrlarının kiçildilmiş şəbəkəsinin saxlanılması şərti ilə yerdə qalan kinoteatrların özəlləşdirilməsi; xarici distribütor şirkətləri ilə əlaqələrin genişləndirilməsi, kinofilmlərin Azərbaycan dilinə dublyajının bərpası, audiovizual məhsullardan istifadənin qaydaya salınması, antipiratçılıq fəaliyyətin gücləndirilməsi;
- ***Dövlət Film Fondu***nda saxlanılan və yeni qəbul edilən milli filmlərin və onların ilkin materiallarının bərpası, konservasiyası və rəqəmli daşıyıcılara köçürülməsi; kino irsinin öyrənilməsi və təbliğ olunması.



## 4.2. Kitab nəşri işinin canlandırılması

Respublikada kitab nəşri işini dövlət və özəl nəşriyyatlar həyata keçirir. Bu nəşriyyatlar "Nəşriyyat işi haqqında" Azərbaycan Respublikası Qanunu və digər müvafiq qanunvericilik aktları əsasında fəaliyyət göstərir. Dövlət nəşriyyatlarına Mədəniyyət və Turizm Nazirliyinin ("Azərnəşr", "Gənclik", "Maarif"), Təhsil Nazirliyinin ("Təhsil"), MEA-nın (Respublika "Xatirə Kitabı" Redaksiyası və "Azərbaycan Milli Ensiklopediyası" Elmi Mərkəzi) və bir sıra digər nazirliklərin, dövlət idarələri və təşkilatlarının tabeliyində fəaliyyət göstərən nəşriyyatlar daxildir. Ölkədə yüzdən çox özəl nəşriyyat mövcuddur. Milli nəşr işinin canlandırılması üçün aşağıdakı məqsədlər müəyyən edilir:

- ***milli nəşr işi***nin dirçəldilməsi məqsədilə elmi, ictimai-siyasi, bədii, publisistik mövzularda kitabların (ensiklopediya, lüğət, çoxcildlik, toplu, almanax, notlu nəşrlər və s.) yüksək poliqrafik səviyyədə buraxılmasının təmin edilməsi;
- Azərbaycan ədəbiyyatı nümunələrinin xarici dillərə və dünya ədəbiyyatı nümunələrinin Azərbaycan dilinə tərcüməsinin və ***yeni əsərlərin yaradılması***nın təşviq edilməsi;
- ***kitab yayımı*** sisteminin təkmilləşdirilməsi məqsədilə dövlət distribütor şirkətlərinin yaradılması, dövlət kitab mağazaları şəbəkəsinin qismən bərpası, Respublika Kitabxana Kollektoru sistemi vasitəsilə kitabxana fondlarının zənginləşdirilməsi işinin təkmilləşdirilməsi;
- Azərbaycan kitabının beynəlxalq aləmə çıxışının, beynəlxalq kitab sərgi-yarmarkalarda iştirakının, həmçinin ölkədə beynəlxalq ***kitab sərgiləri***nin keçirilməsinin təmin edilməsi, oxucu mədəniyyətinin formalaşdırılması.

## 5. İcra və monitorinq

"2006-2016-cı illər üçün mədəniyyət sahəsində dövlət inkişaf konsepsiyası"nın hüquqi bazasını Azərbaycan Respublikasının Konstitusiyası, "Mədəniyyət haqqında" Azərbaycan Respublikasının Qanunu, mədəniyyət sahəsilə bağlı qəbul edilmiş digər və əlaqəli milli qanunvericilik aktları, beynəlxalq hüququn təsdiq edilmiş prinsip və normaları və Azərbaycan Respublikasının beynəlxalq öhdəlikləri təşkil edir. "2006-2016-cı illər üçün mədəniyyət sahəsində dövlət inkişaf konsepsiyası" bir sıra dünya ölkələrinin mədəniyyət siyasəti sahəsində təcrübəsinin yaxından öyrənilməsi və Avropa Şurası ilə birgə hazırlanmış "Azərbaycanda mədəniyyət siyasəti" adlı Milli Məruzənin əsasında yaradılmışdır.

"2006-2016-cı illər üçün mədəniyyət sahəsində dövlət inkişaf konsepsiyası"nın həyata keçirilməsində Mədəniyyət və Turizm Nazirliyi ilə yanaşı digər əlaqəli nazirliklər və dövlət komitələri, yerli icra hakimiyyətləri, mədəniyyət və incəsənət təşkilatları və müəssisələri, elmi-metodiki mərkəzlər, yaradıcı birliklər, mədəniyyət və incəsənət sahəsində çalışan qeyri-hökumət təşkilatların iştirak etməsi nəzərdə tutulur.

İnkişaf konsepsiyasının icrasının dövlət əlaqələndiricisi Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyidir.

Azərbaycan Respublikasının dövlət büdcəsinə təkliflər və mədəniyyət sahəsinin dövlət büdcəsi tərəfindən maliyyələşdirilməsi "2006-2016-cı illər üçün mədəniyyət sahəsində dövlət inkişaf konsepsiyası"nın strukturu əsasında həyata keçirilir. Büdcə təminatı ilə yanaşı xarici və yerli investorların cəlb edilməsi, alternativ maliyyələşdirmə yollarının istifadə olunması da nəzərdə tutulur.

"2006-2016-cı illər üçün mədəniyyət sahəsində dövlət inkişaf konsepsiyası"nın icrası 10 il müddətinə nəzərdə tutulmuşdur. İnkişaf konsepsiyasının icrasının monitorinqi haqqında məlumat Mədəniyyət və Turizm Nazirliyinin illik hesabatlarında əks olunur və müvafiq qaydada Nazirlər Kabinetinə təqdim edilir.

**Redaksiyadan: Mədəniyyətimizin gələcək inkişafında əhəmiyyətli rol oynayacaq bu konsepsiyanı diqqətinizə yalnız məlumat üçün vermir, həm də hər birinizi layihənin müzakirəsində fəal iştirak etməyə çağırırıq.**

**Yerlərdə olarkən həmişə problemlərdən danışır, qarşılaşdığınız çətinliklərin ləğvi istiqamətində aparılacaq işləri götür-qoy edirsiniz. İndi əsl məqamıdır. Bu vacib sənədlə bağlı sözünüzü deyin, təkliflərinizi bildirin!!!**